10 mindən çox milli məhsul artıq ştrixkodludur

"GS1 Azerbaijan" İZVLƏRİNƏ aşağıdakı XİDMƏTLƏRİ göstərir:

- *GS1 beynəlxalq sistemində (Global Company Prefix - GCP) ombo istehsalçılarına qeydiyyat identifikasiya nömrəsinin verilməsi;*
- *Müəssisənin məhsulunun GS1 sistemində kodlaşdırılması;*
- *Müəssisəyə GS1 (Global Location Number - GLN) sistemində identifikasiya nömrəsinin verilməsi;*
- *GS1 sistemindən istifadə edən müxtəlif müəssisələrin axtarışı;*
- *Cəmiyyət üzvlərinin metodiki vəsaitlərlə təmin edilməsi, onlara bülleten və məlumat materiallarının göndərilməsi;*
- *Cəmiyyət və ya digər təşkilatlar tərəfindən keçirilən tədbirlər, seminarlar, sergilər barədə məlumatların verilməsi;*
- *Ştrixl kodlaşdırma və avtomatik identifikasiya üzrə normativ-metodiki sənədlərlə tanışlıq;*
- *Avtomatik identifikasiya məsələləri ilə bağlı məqalələrin seçilməsinə hazırlıq;*
- *Cəmiyyət üzvlərinin məqalələrinin və reklam materiallarının informasiya bülletenlərində yerləşdirilməsi*
- *Cəmiyyət üzvlərinin məhsullarının sərgisinin təşkili;*
- *Tədris kurslarının və seminarların keçirilməsi;*
- *GS1 sistemi üzrə normativ sənədlərin təqdim edilməsi*

Ticarətin qloballaşması və informasiya texnologiyalarının sürəti inkişafı ümumilikdə ticarət proseslərinə, o cümlədən daşınma həlqəsinə yanaşmanın fundamental dəyişməsi zorunluluğunu ortaya çıxarır. Son illər daha çox satış və tədarük həlqələrinin sonrakılığının artırılması vəzifələri prioritet sahəyə çevrilib. Ticarət tərəfdaşlarının qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsinə yönəldilmiş məsələlərin və qlobal standartların hazırlanması və tətbiqini həyata keçirən beynəlxalq GS1 təşkilatı öz missiyasını mənzil bu mürəkkəb problema fokuslaşdırıb.

GS1 beynəlxalq Assosiasiyası *EAN İnternational* və *Uniform Code Council, Inc (UCC)* təşkilatlarının birləşməsi nəticəsində yaranıb. *Mərkəzi qərargahları Brüsseldə (Belçika) və Princetonda (Nyu-Cersi, ABŞ) yerləşir. GS1 (2005-ci ilə kimi EAN İnternational) - qeyri-kommersiya beynəlxalq assosiasiyasıdır.*

Assosiasiya GS1 sistemini regional səviyyədə təbliğ edən və 2005-ci ilə qədər "GS1" emblemindən istifadə hüququna malik olan milli təşkilatlardan ibarətdir.

GS1 standartları dünyada ticarət tərəfdaşlarının ən geniş istifadə etdiyi modelllər. Hazırda 145 ölkənin milyondan çox şirkəti gündəlik tacrübədə 20-dən çox sahədə və sənaye sektorunda GS1 standartlarından istifadə edir. Hər gün 5 milyarddan çox ştrix kod skanerdən keçirilir.

GS1-Azərbaycan Cəmiyyəti Azərbaycan ərazisində beynəlxalq GS1 təşkilatının yeganə səlahiyyətli nümayəndəsidir. Hazırda GS1 avtomatik İdentifikasiya standartlarından istifadə edən 400-dən çox müəssisə Cəmiyyətin üzvüdür.

İdentifikasiya izləmə vasitəsi kimi

Və yaxud yeyinti məhsullarının təhlükəsizliyi proqramında yeni istiqamət

Malların, xüsusilə də qıda məhsullarının istehlak xassələrinin təhlükəliliyi ilə bağlı narahatlıqlar belə de heç vaxt indiki kimi yüksək səviyyədə olmayıb.

Son illər Avropada qıda məhsullarının istehsalı sferasında mövcud olan bəhran istehlakçıların gözündə onlara qarşı şübhə oyadıb və bazara gətirilən mallara qarşı inamsızlıq yaradıb. Bu gün kütləvi informasiya vasitələri dioksid, peestisid, ağır boşluğu və dişi xəstəlikləri və s. kimi problemlərə böyük yer ayırır. Malların təhlükəsizliyi problemləri isə demək olar ki, hər zaman diqqət mərkəzində olur. Orta hesabla hər gün on az bir məhsul növünün təhlükəliliyi barədə məlumatlar gündəmə gəlir. Bunun nəticəsi olaraq hər il 200-ə qədər növdə məhsul bu və ya digər səbəbdən bazarlardan çıxarılır.

Əvvəllər qıda məhsullarının təhlükəsizliyi şirkətlərin könüllü məsuliyyəti kimi qəbul edilirdi. Ancaq Avropa Birliyinin qıda məhsullarının təhlükəsizliyi sahəsində qəbul etdiyi normativ sənədlər bu yanaşmaya xeyli dəyişiklik gətirdi. Belə ki, Birliyin 2001-ci ilin dekabrında Məhsulların Ümumi Təhlükəsizliyi üzrə Avropa Direktivini (EU Directive 2001/95EC on General Product Safety), 2002-ci ilin yanvar ayında isə Məhsulların Təhlükəsizliyi üzrə Avropa Qaydasını (EU Regulation 178/2002 on Food Safety) qəbul etməsi qıda məhsullarının təhlükəsizliyinə olan tələbləri artırdı və bir qədər sərtləşdirdi. Qeyd edək ki, bu sənədlərdə göstərilən tələblər 2005-ci il yanvarın 1-dən qüvvəyə minib.

Normativ sənədlərdə hamçının qıda məhsullarının istehsalın bütün mərhələlərində izlənilməsi prosedura əksini tapıb. İzləmə bu gün artıq tamamilə qanuni tələbdir və şirkətlərin də yeni tələblərə riayət etməkdən savayı seçimi qalmayıb. Məhz müvafiq sistemləri və prosesləri tətbiq etməklə rəqabətqabiliyyəti qalmaq olar.

Daşınma həlqəsinin izlənilməsi prosesi

Axtarılmalı və izlənilməli olan istenilən məhsul indentifikasiya olunmalıdır. Unikal qlobal identifikator olan EAN/UCC məhsulun tarixçəsi haqqında bütün məlumatlara çıxış təmin edən açardır.

Yerləşmənin unikal identifikasiyası yer və funksional hissələrə Qlobal Yerləşmə Nömrəsinin verilməsini təmin edir.

Malın unikal identifikasiyası hər məhsula Ticarət Predmetinin Qlobal nömrəsinin (GTİN) verilməsini təmin edir. Konkret məmulatın izlənilməsi və identifikasiyası üçün GTİN ya seriya nömrəsi, ya da partiyanın nömrəsi ilə kombinə edilməlidir.

Qablaşma ierarxiyasının 3 mərhələsinin hər birində GTİN verilir: istehlak vahidi, ticrət vahidi və palet (ticarət vahidi kimi bəzən qıda).

Palletlərin identifikasiyası və izlənilməsi onlara Nəqliyyat Qablaşmasının Seriya Nömrəsinin (SSCC) verilməsi vasitəsilə aparılır. Tipindən (qarışıq və ya çoxar) asılı olmayaraq istenilən palet SSCC-yə daxil edilməlidir. Palletin üzərinə hər dəfə yeni məhsul yığıldıqda ona yeni SSCC verilməlidir.

Qıda məhsullarının ayrı-ayrı növlərinin izlənilməsi üzrə tövsiyələrin işlənilməsi GS1 İnternational standartlarının idarə edilməsi prosesində (GSMP) vacib yer tutur. Balqların, toyuq etinin, qərab və s. qıda məhsulları üzrə izlənilmənin artıq işlənilmiş tövsiyələri adıçəkilən AB Direktivlərinin tələblərinə cavab verir.

İzləmə - *istehsalın, emalın və bölüşdürülmənin bütün mərhələlərində qıda məhsullarının, yemin, heyvan və heyvanmənşəli komponentlərin hərəkəti, yerləşmə yeri və mənşeyini dəqiq dəqiqə mərkəzində, nəzarətdə saxlamağa imkan verən prosesdir.*

İzləmənin tətbiqi üçün daşınanın bütün həlqəsində məhsulun hərəkət mənşeyini, yerini, mənşeyini müəyyənləşdirməyə imkan verən qeydlərin qəbulu zəruridir. Yeni sizi maraqlandıran obyektin "Harada?" yerləşməsi və "Haradan?" gəlməsi suallarına cavab verməlidir.

Mal dövriyyəsində əsas qeydlər:

1. Qəbul

SSCC-yə daxil edilən paket yazılır və tədarükçünün GLN-i ilə əlaqələndirilir. Palletin hərəkətinə uyğun olaraq SSCC nömrəsi hər zaman oxunur və yeri yerin (saxlanma və ya istehsal) GLN-nə qoşulur

2. İstehsal

İdəal şəraitdə palletin SSCC nömrəsi və/və ya istehsal prosesində istifadə edilən GTİN + xammal partiyasının nömrəsi qeyda alınır və hazır məhsulun və onun partiyasının nömrəsinə qoşulur. İstehsal prosesinin sonunda ayrı-ayrı məhsulardan standart ticarət qablaşması formalaşdırılır. Yeni GTİN verilir və partiyanın nömrəsinə qoşulur.

3. Qablaşma, saxlanma, müşayiət

GTİN standart ticarət qablaşması palletin qablaşmanın yerləşdiyi SSCC nömrəsinə qoşulur. Gedən palletin SSCC nömrəsi tayınat yerinde GLN nömrəsinə qoşulur (skanerin köməkliyi ilə). Burunla da GLN-in etiketdə əks olunması vacib deyil.

İzləmənin üzrə bu tövsiyələrin Azərbaycan bazarlarında qəbulu təmin etmək üçün həm istehsalçıların, həm de dövlət strukturlarının mərəkələndirmə zəruridir.

Vafa Əliyev
"GS1 Azərbaycan" Cəmiyyətinin direktoru

ŞTRİXKOD SKANERİ - SEÇİM PROBLEMİ

Ştrixkod skanerinin seçim vasitəsi praktiki olaraq avtomatlaşdırma yolunu seçmiş hər bir sahibkarın qarşısında durur. Bəs, skanerlər necə olur? Seçimdə necə səhv etməmək olar?

Əvvəlcə, ştrixkod skanerlərinin növləri nəzərdən keçirək. Skanerlər tipinə, mexanizminə, kompütərə qoşulma, məlumatları ötürmə üsuluna görə aşağıdakı kimi sistemləşdirilir:

Tiplərinə görə skanerlər:
- *İşıqlıdıcı CCD skanerlər*
- *Birmüstəvili lazer skanerlər*
- *Çoxmüstəvili lazer skanerlər*

Mexanizmə görə:
- *Əlləşi və əlləşsiz əl skanerləri*
- *Stasionar (şaquli səthə qoşulan)*
- *Kassaya qoşulmuş (məsələn, stolun dəlikdə yüşə altında)*

Kompüter portuna qoşulma üsuluna görə:
- *Klaviatura kassyna qoşulan*
- *COM-port (RS-232) vasitəsilə qoşulan*
- *USB-port vasitəsilə qoşulan*

Məlumatların ötürülməsi üsuluna görə:
- *birbaşa kompüter portuna qoşulan skaner*
- *yaddaşlı skaner*
- *radio-skanerlər (skanerin signal kompütərə qoşulmuş "baza"ya ötürülür)*

İkincisi, "Hansı ştrixkod skaneri daha çox uyğun gəlir?" sualına cavab vermək üçün aşağıdakı əlavə məlumatlara diqqət yetirək.

İşıqlıdıcı ştrixkod skanerlərin hamısı praktiki olaraq əl vasitəsilə işlədilir və kodu 1-2 sm məsafədən oxuyur. Hamar olmayan səthlərdə (məsələn, pivə bankası və ya çipə bağlanası) skaner ştrix kodları ilk dəfədən oxumağa çətinlik çəkir. Elə buna görə də belə skanerlərlə işləyən zamanı xidmətin sürəti aşağı düşür.

Birmüstəvili lazerli əl skanerləri daha yaxşı işləyir, ştrix kodu 10-15 sm aralıqdan oxuya bilir. Ancaq bu skanerlərdə malın ştrix kodunun oxuyucuya nisbətdə şaquli yerləşməsini təmin etmək tələb olunur. Belə skanerlərin dünyəvi modellərindən o zaman istifadə olunur ki, bir neçə ştrix koddan yalnız sıra lazım olanı (bunlar daha çox kompüterin hissələrinə aiddir) skanerdən keçirilsin. Qıda məhsulları üçün dünyəvi yeddən çıxarı biləsiniz, çünki "görmə zonası"na düşdükdə skaner öz-özünə işə düşür.

Çoxmüstəvili skanerlərin məhsuldarlığı yüksəkdir. Ancaq onların qiymətləri digərləri ilə müqayisədə çox bahadır.

Skaneri kompüter portuna qoşmaq üçün əvvəlcə işləyəcəyiniz proqramları müəyyənləşdirməlisiniz. Belə ki, sizin işləyəcəyiniz kompütərə 1C proqramı yüklənibsə, bu halda skaner COM-port-a (RS-232) malik olmalıdır. Əks halda əlavə drayver olmadan 1C proqramı ştrix kodun oxunması prosesini adi mətn yığınında ayrı edə bilməz.

Məlumatların ötürülməsi üsuluna gəlincə isə, onu qeyd etmək olar ki, hazırda kabel vasitəsilə qoşulan ştrix kod skanerindən geniş istifadə olunur. Yaddaşı skanerdən o zaman istifadə olunur ki, skanerdən keçirilmiş və yadda saxlanılmış ştrix kod məlumatlarını kompüterin yaddaşına köçürmək üçün onun kompütərə qoşulmasına bir neçə dəqiqə sərf edəsən. Radio-skanerlə o yerlərdə istifadə edilir ki, stasionar skanerlərin kabeli qısadır və 5 metrdən 150 metrə kimi olan məsafədə yerləşən mallar skanerdən keçirilməlidir. Bir məsələni də qeyd edək ki, inventarlaşma zamanı radio-skanerdən az istifadə olunur. Bunun üçün məlumatların yığın terminalı adlanan avadanlıqdan faydalanırlar.

Nigar Nəzərova,
"GS1 Azərbaycan" Cəmiyyətinin İcraçı direktoru

Ştrix kodun qanuniliyini necə yoxlamaq olar?

Ştrix kodun qanuniliyini İnternet vasitəsilə yoxlamaq olar. Bunun üçün GEPİR (Global GS1 Party Information Register) qlobal qeydiyyatın axtarış sisteminin İnternet səhifəsində kodun 13 nəçərnini daxil edib "Axtarış" düyməsini basmaq lazımdır. Hamın ştrix kodun nömrəsi vasitəsilə məhsulun istehsalçısı haqqında məlumat ekrana gələcək. Ştrix kod saxta olduqda isə istehsalçı müəssisə haqqında məlumat verilməyəcək. Ştrix kodlar haqqında məlumatların GEPİR-də yerləşdiyi ölkələrin siyahısını www.gepir.org ünvanının ana səhifəsində tapmaq olar.

Ştrix kodlar üçün xüsusi standartlar varmı?

GS1 Azərbaycanın fəaliyyət istiqamətlərindən biri də ştrixl kodlaşdırma sahəsində Azərbaycan Respublikasının dövlət standartlarının işlənilməsi, müzakirəsi, razılaşdırılması və tədqiq hazırlanması təşkil edir. Hazırda Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patentləşdirmə Agentliyi tərəfindən 2 standart təsdiq edilib:

- Ştrixli kodlaşdırma üzrə terminlər və anlayışlar;
- EAN/UPC simvollarının xüsusiyyətləri

2005-ci ilin sonuna daha 2 standartın Cəmiyyət tərəfindən təqdiq verilməsi planlaşdırılıb:

- Ştrix kod simvollarının oxunmasına təsir edən amillər;
- Code 39 simvolunun xüsusiyyətləri

Qablaşmaya vurulan ştrix kod necə hazırlamaq olar?

Ştrix kodu malın etikətlərinin və qablaşmalarının çapının sifariş verildiyi mətbəədə çap etdirmək daha məqsədəuyğundur. Bunun üçün etiketin (qablaşmanın) maketində içində EAN-13 ştrix kodu yerləşən nominal ölçüdə düzbucaqlı saha ayırmaq lazımdır. Əgər Siz müasir mətbəə ilə işləyirsinizsə, bu halda sifarişdə sadəcə EAN/UCC-13 nömrəsini, məsələn 4780700952004 göstərmək kifayətdir.

Əgər mətbəənin buna imkanı çatmırsa, bu halda FİLM-MASTER vermək olar.

FİLM-MASTER - ştrix kodun polyonkada orijinal təsvirdir. O, ştrix kod simvolunun mətbəədə çap üçün nazarda tutulub. Film-master xüsusi avadanlıqda xətlərin aralığına dəqiq riyaşət etməklə hazırlanır. Bir film-masterlə məhsulun qablaşın bütün tirajını hazırlamaq olar və bu halda ştrix kodlaşmanın dəyəri ucuz başa gəlir.

GS1 - biznesin vahid dilidir GS1 - The Global Language of Business

Beynəlxalq EAN ştrixkod sisteminin ölkələr üzrə prefiksləri

Nömrəsi	Ölkələr
000-139	ABŞ və Kanada
300-379	Fransa
380	Bolqarıstan
383	Sloveniya
385	Xorvatiya
387	Bosniya-Hersoq.
400-440	Almaniya
450-459&490-499	Yaponiya
460-469	Rusiya
470	Qırğızıstan
471	Tayvan
474	Estoniya
475	Latviya
476	AZƏRBAYCAN
477	Litva
478	Özbəkistan
479	Şri-Lanka
480	Filippin
481	Belarus
482	Ukrayna
484	Moldova
485	Ermənistan
486	Gürcüstan
487	Qazaxstan
489	Honq-Konq
500-509	B.Britaniya
520	Yunanıstan
528	Livan
529	Kipr
531	Makedoniya
535	Malta
539	İrlandiya
540-549	Belçika, Lüksemburq
560	Portuqaliya
569	İslandiya
570-579	Danimarka
590	Polşa
594	Rumıniya
599	Macarıstan
600-601	Cənubi Afrika
608	Bəhrəyn
609	Mauritis
611	Mərakeş
613	Əlcəzair
616	Qeniya
619	Tunis
621	Suriya
622	Misir
624	Liviya
625	İordaniya
626	İran
627	Küveyt
628	S.Ərəbistan
629	BƏƏ
640-649	Finlandiya
690-695	Çin
700-709	Norveç
729	İsrail
730-739	İsveç
740	Qvatemala
741	Salvador
742	Honduras
743	Nikaraqua
744	Kosta-Rika
745	Panama
746	Dominika
750	Meksika
759	Venesuela
760-769	İsveçrə
770	Kolumbiya
773	Uruqvay
869	Türkiyə

Azərbaycan, AZ1010,
Bakı şəhəri, Xaçanı küçəsi,
42, ofis 62-63
Tel: 498 7405, Faks: 498 1058
E-mail:ean@ga1az.org